# Gözünün nurunu sətirlərin arasında əridib

## *Tanınmış jurnalist Nizami Rəhmanlının 70 yaşı tamam olur*



**Mayın 5-i əvvəllər mətbuat günü kimi qeyd edilirdi.**

**Sovet mətbuatının yaranması günü kimi. 1912-ci ildə həmin gün "Pravda" qəzetinin ilk nömrəsi çapdan çıxmışdı.**

Nizaminin ad gününün həmin günə düşməsi təsadüf, yoxsa zərurətdir?

Əlbəttə, hər bir təsadüfdə zərurət, zərurətdə təsadüf var.

Əslində, onun nə vaxt dünyaya gəlməsinin heç bir ciddi əhəmiyyəti yoxdur. Amma özü belə qəbul eləmir. Hətta zarafatla deyir; "mayın 5-də dünyada iki böyük dahi doğulub: Almaniyanın Trir şəhərində Karl Marks, Şabran rayonunun Orta Əmirxanlı kəndində Nizami Rəhmanlı".

Şübhəsiz ki, onun söylədiyi "dahilik" məsələsi zarafat, özünün uyduruğu yumordur. Amma bununla belə onun həyat və xarakterinin bir sıra bənzərsiz, az təsadüf olunan məqamları da var.

10-15 il əvvəlkindən fərqli olaraq Nizaminin gözlərinin nuru xeyli azalıb. 3 nömrəli eynəklə görür. Oxumağa, mütaliəyə olan ehtiras onun görmə qabiliyyətini əməlli-başlı zəiflədib. Elə bu məsələnin üstündə ayrıca dayanmağa dəyər...

İlk növbədə mütaliəyə, oxumağa, öyrənməyə olan sonsuz və doyumsuz maraq hissi. Necə deyərlər, gözünü bu dünyaya açanda evdə kitab-dəftər görüb. Erkən yaşlarından kitablara, mütaliəyə meyil salmasında coğrafiya müəllimi olan atası Sədrinin, riyaziyyat müəllimi və kənd məktəbinin direktoru olan anası Məzəxanım müəllimənin ailəsində böyüməyinin də çox böyük rolu olub. Ailənin ikinci övladı olan Nizamidə bu marağın yaranmasında böyük bacısı Rəhimənin də təsiri vardı. Bacı-qardaş orta məktəbdə yalnız "əla" qiymətlərlə oxuyublar, daim öyrənməyi, əllərinə düşən kitabları, qəzet-jurnalı mütaliə etməyi özlərinə borc biliblər. Nizami ibtidai təhsilini başa vuranda Orta Əmirxanlı kənd kitabxanasında oxumadığı kitab qalmamışdı. Onlara elə gəlirdi ki, kimsə onlara sual versə və ona cavab verə bilməsələr, valideynlərin başlarını aşağı edərlər...

Nizaminin daha bir özəlliyi: kənddə doğulsa da, şəhərsayağı böyüyüb. Onda kənd uşaqlarına məxsus dəliqanlılıq, diribaşlıq, ordan vurub, burdan çıxmaq olmayıb. Özü də bunu etiraf edir: "Ağaca çıxmırdım, qaranlıqdan qorxurdum, ağır təsərrüfat işlərinə göndərilmirdim, amma qonşu Baş Əmirxanlı kəndindəki kitabxanaya gedib-gəlməkdən yorulmurdum. Beş yaşında hərfləri tanıyırdım, altı yaşında məktəbə getmişəm, ikinci sinifdən isə sərbəst, sistematik mütaliəyə başlamışam".

Dördüncü sinifdə oxuyanda onun mütaliə etdiyi ədəbiyyat sırasına uşaq nağılları, hekayələrlə yanaşı indiyədək adlarını və müəlliflərini unutmadığı bir sıra kitablar da daxil olub. Məsələn, gənc partizan Volodya Dubinin haqqında rus yazıçıları Lev Kisselin və Mark Polyanovskinin müştərək əsəri olan "Kiçik oğul küçəsi", yenə rus yazıçı Nikolay Nosovun "Vitya Maleyev məktəbdə və evdə", fransalı yazıçı Hektor Malonun çox məşhur "Ailəsiz" povestləri

Doqquzuncu sinifdə oxuyanda o dövrün tanınmış yazıçısı Əlfi Qasımova məktub yazıb: "Ədilənin taleyi" əsərini oxuduqdan sonra

Yazıçıdan aldığı cavab məktubu isə Nizamini bütün Dəvəçidə məşhurlaşdırıb.

Anası nə az, nə çox, düz 27 il məktəb direktoru olub. Ali məktəbi bitirən məzunlardan təyinatla onun da təhsil aldığı, anasının direktor olduğu məktəbə gələnlər olub. Özü həmin dövrü belə xatırlayır: "Məktəbdə işləməyə gələn gənc müəllimlərlə ünsiyyət qurur, onlara tanış olurdum. Onların tələbəlik illəri, peşə seçimi, ali məktəbə aparıb çıxaran maraq dairələri, şəhər həyatı, gənclik illərinin macəraları məndə böyük maraq doğurur, arzularımı, xəyallarımı qanadlandırırdı. Tələbə qayğıları ilə yaşamaq, auditoriyalarda alim və professorların qarşısında əyləşib onları dinləmək, şəhər həyatının romantikası məni özünə çox cəlb edirdi. Bunun üçün bir yol var idi ki, o da yaxşı oxumaq, bilikli olmaq, kitablarla ünsiyyət bağlamaqla mümkün idi. Ona görə də bu yolu seçmişdim. Elə bu istəklə də Bakı Dövlət Universitetinin kitabxanaçılıq fakültəsinə qəbul olundum".

Çoxlu oxumaq, çox mütaliə etmək onda belə bir fikir yaratmışdı ki, özü də nəsə yaza bilər. Özünü bu sahədə də sınayıb. Yeddinci sinifdə oxuyanda qələmə sarılıb, miniatür, etüd, təmsil və şeirlər yazıb. İlk məqalələri və qələm təcrübələri rayonda çıxan "Qurucu" qəzetində dərc olunub. Sonra imzası yavaş-yavaş "Azərbaycan pioneri", "İdman" qəzetlərində, "Təşviqatçı" jurnalında görünməyə başlayıb. Tələbəlik illərində universitetin "Lenin tərbiyəsi uğrunda", sonralar "Azərbaycan gəncləri" qəzetləri ilə əməkdaşlıq edib.

Ali təhsilini başa vurandan sonra təyinatla Azərbaycan Həmkarlar İttifaqının Xəzər Dəniz Gəmiçiliyində İdarəsində göndərilib. Düz iki il bu sahədə çalışıb. Orda hamı onun işindən, özündən razılıq etsə də, özü narazı qalıb. Çünki o, özünü tapmamışdı. Mütaliədən başqa onun qəlbində yuva qurmuş bir arzusu, hobbisi də olub.

...Ötən əsrin 60-cı illərində hələ elektrik işığı görməyən Əmirxanlı kəndində yalnız onların evində o vaxt çoxlarının həsəd apardığı "Rodina-47" və "Rodina-52" adlı iki radioqəbuledici vardı. Nizaminin kitablardan başqa bir də ən sevimli həmdəmi imiş Özü xatırlayır: "Mənə ədəbiyyatı, mütaliəni radio sevdirib. "Sehirli qutu"dan gələn səslər, səslənən musiqilər onun özünə məftun etmişdi". Elə o vaxtdan radioda işləmək arzum yaranmışdı".

1976-cı ildə bu arzusuna da çatıb - həmin ilin fevralından Azərbaycan radiosunda əmək fəaliyyətinə başlayıb. Həmin il fevralın 26-sı onun həyatının ən unudulmaz və xoşbəxt günlərindən biri olub. Həmin gün Nizami radionun xəbərlər redaksiyasında işə girib. Uşaqlıqdan ona doğma olan, vurğunluqla dinlədiyi, eşitdiyi səs sahibləri ilə bir kollektivdə işləmək, qələmindən çıxan sətirləri onların səsləndirməsi radio pərəstişkarını hədsiz dərəcədə sevindirib. 1983-cü ildən isə Azərbaycan televiziyasına keçib. 1991-dən "Həyat"-"Azərbaycan", sonra "Respublika", "Panorama" qəzetlərində işləyib.

Ömrünün 70-ci baharını yaşayan Nizami Rəhmanlı bu illər ərzində 18 kitab yazıb. Kitabların əsas mövzu dairəsi xarici ölkələrdə, xüsusilə Rusiyada və Ukraynada məskunlaşaraq yaşadıqları ölkənin ictimai-siyasi, iqtisadi, elmi, mədəni həyatında uğurla iştirak edən, xalqımızı ləyaqətlə təmsil edən, ölkələrimiz arasında dostluq və əməkdaşlıq münasibətlərini daha da möhkəmləndirən soydaşlarımız barədədir. Onun kitablarının adından da bunu hiss etmək olar: "Tanınanlar və tanıdanlar", "Bu şəhərdə mənə doğma kimsə var", "Dolaşdım kəndi, şəhəri", "Azərbaycan - yurdum mənim", "Çıraqqala yurdunun övladları", "Udmurt Respublikasında Azərbaycan dünyası", "Dünya bir pəncərədir"...

Azərbaycan Yazıçılar və Jurnalistlər birliklərinin üzvü, Prezident təqaüdçüsü Nizami Rəhmanlının jurnalist ömrü yazdığı kitablara, gözünün nuru qələmə aldığı sətirlərə hopub. O, yenə də öz mövzularına sadiqdir. "Kəndimizin adamları" adlanan son kitabında doğma Əmirxanlı kəndinə şöhrət gətirən, onu tanıdan həmyerliləri haqqında söhbət açır. Kim bilir, bəlkə də üç övlad atası, beş nəvənin babası olan Nizaminin öz həyatı da nə vaxtsa yazılan kitabın mövzusu olacaq

**Süleyman Qaradağlı**